

# Bir tarixi abidənin aqibəti

***Lap əzəldən Qafqazlarda gözü olan Rusiya Azərbaycan və Gürcüstanı nəzarətdəsaxlamaqla bərabər qonşuluqda olan türk-müsəlman dövlətlərinə də təsir etməkgücünə malik olmaq istəyirdi. Buna nail olmaq üçün hərbi-siyasi güclə bərabəriqtisadi təsirdən də istifadə edilirdi.***

Zaman-zaman iqtisadiyyatın müxtəlif sahələrinigündəmə gətirməklə ayrı-ayrı üsullardan istifadə edirdilər. Bu üsullardan biri dətikintisi 1878-ci ildə başlayıb, 1883-cü ildə başa çatmış dəmir yol xətti idi. Ruslar özbaşçılıqları ilə çəkdirdikləri dəmir yolu vasitəsi ilə Bakı-Tiflis şəhərlərininəlaqələrini gücləndirməklə bərabər Xəzər dənizi ilə Qara dəniz limanlarını danəzarətdə saxlamaq idi. Dəmir yolunun çəkilişində ucuz işçi qüvvəsi kimi yerliəhalidən də istifadə edirdilər. Dəniz yolunun tam gücü ilə işləməsi üçün lazımiyerlərdə dayanacaqlar tikir, yaxınlıqda kəndlər salır, insanların işləməsi üçünmüxtəlif sahələrə cəlb edirdilər. Hal-hazırda Dəliməmmədli şəhərində fəaliyyətgöstərən dəmir yol dayanacağının tikilməsi də həmin illərə təsadüf edir. İllər ötdükcədəmir yol işçiləri üçün yaşayış evləri, iş otaqları, hamam, parla işləyən qatarlar üçünsu anbarları tikilmişdir. İnsanları su ilə təmin etmək üçün su quyusu qazılmış və həminquyunun yanında qüllə tikilmişdir.

Tikintisi 1908-ci ildə başa çatan qüllə gündə onlarla parla işləyən qatarları suilə təmin edirdi. Texnika inkişaf etdikcə parla işləyən qatarları elektriklə işləyənqatarlar əvəz edirdi. Su qülləsinə ehtiyac azaldı.

***Aylar keçdikcə su qülləsindən dəmir yol işçiləri şəxsi evlərinə və iş otaqlarınasu xətti çəkirdilər. Qüllədən yüzdən artıq fəhlə və qulluqçu içməli su ilə təminolunurdu.***

Azərbaycnda sosializm iflasa uğradıqdan sonra keçid dövrü ərzində bütünsahələrdə olduğu kimi dəmir yolunun su ilə təchizatı sahəsində də zəifləmələr oldu. Suçəni və su xətləri illərlə təmir olunmadı. Nəticədə çəndə və su xətlərində çürüməl期ərbaşladı və müxtəlif yerlərdən su sızmaları oldu. Vaxtlı-vaxtında su sızmalarınınqarşısını ala-bilməyən dəmir yolunda işləyən məmurlar əhalinin istifadəsi üçünartezianları və su xəttini Goranboy rayon Su təchizatı idarəsinə təhvil verdilər.

Ölkə başçısının sərəncamı ilə tarixi abidələr təmir olunur və ya yenidən bərpaolunurdu. Bundan istifadə edən əlaqədar təşkilatlar su qülləsini tarixi abidə kimi qeydiyyata aldılar. Hal-hazırda bir əsrdən artıq yaşı olan tarixi abidə sayılan suqülləsinin aqibəti çox acınacaqlı vəziyyətdədir. Çəni deşik-deşik olan su qülləsinindivarları bir neçə yerdən çat verib. Qüllənin giriş qapısı müəmmalı şəkildə yoxaçıxıb. Biz öz tariximizə sahib çıxmalıyıq. Əgər çən təmir olunmasa və ya yenisi iləəvəz olunmasa tarixi abidə sayılan qüllənin dağılmaq təhlükəsi var. Qüllə əhaliningedişli-gəlişli yerində yerləşdiyi üçün bir çox insanların həyatı üçün təhlükə yaradabilər.

***Əlaqədar təşkilatlar Prezidentin tarixi abidələrin təmiri və ya bərpası üçünverdiyi sərəncamı əldə rəhbər tutaraq bir əsrdən artıq yaşı olan tarixi abidəni təmiretməlidirlər. Əks təqdirdə qüllə (tarixi abidə) qəzaya uğrayarsa Prezidentə və yaDəliməmmədli əhalisinə cavab verməli olacaqlar.***

**İlqar Müzəffəroğlu**
**AJB-nin üzvü**